**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**

«Təsdiq edirəm»
Tədris məsələləri
üzrə prorektor v.i.e:
______________dos. Zaur Məmmədov
“____” ______ 2026-cı il

# FƏNN SILLABUSU
(işçi tədris proqramı)

**İxtisasın şifri və adı:** 6001012-Kimya və biologiya müəllimliyi, 6005004-Ekologiya, 6001005-Fizika müəllimliyi, 6001015-Riyaziyyat müəllimliyi, 6001017-Riyaziyyat və informatika müəllimliyi A+B, 6001020-Texnologiya müəllimliyi
**Fakultə:** Təbiyyat
**Kafedra:** Tarix və onun tədrisi metodikası
**I Fənn haqqında məlumat**:
**Fənnin adı:** S/f.Politologiya (LDU Elmi Şurasının 25.04.2018-ci il qərarı ilə təsdiq olunmuşdur.(əmr № 4/44)
**Kodu:** SF-B05, SF-B04.2
**Tədris ili:** 2025-2026
**Semestr:** IV (yaz)
**Tədris yükü**: Cəmi 90 saat. Auditoriya saatı 30 saat: (15 saat mühazirə, 15 saat seminar)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 3 kredit
**II Müəllim haqqında məlumat:**
**Soyadı, adı, ata adı, elmi dərəcəsi və elmi adı: Mühazirə müəllimi:** dos. İbadov Rakif Hüseyn oğlu, **seminar müəllimi:** m.Gözəl Əlizadə Hikmət qızı
**Kafedranın ünvanı:** Lənkəran ş., Ə.Məmmədov küç., 21
**Məsləhət saatı**: II-V günlər: saat $14^{00}$-$16^{00}$
**E-mail ünvanı**: ibadov_rakif@mail.ru
**III Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**


1. Şirəliyev H., Əhmədov Ə. Politologiya (dərslik). Bakı, 2014.
2. İsgəndərzadə M. Politologiya (dərslik). Bakı, 2012.
3. Hüseynov R. Politologiya (dərs vəsaiti). Bakı, 2017.
4. İbrahimli X. Politologiya. Bakı, 2008.
5. Əfəndiyev M. Politologiya (dərslik). Bakı, 2011.
6. Musabəyov R. Azərbaycanın Siyasi Rejimi və Demokratiya. Bakı, 2021.
7. Məmmədov F. Azərbaycanda Demokratiya və İnsan Hüquqları: İqtisadi, Siyasi və Hüquqi Perspektivlər. Bakı, 2020.
8. Qafarov R. Azərbaycanda Seçki Sistemi və Seçki Prosesləri. Bakı, 2022.
9. İsmayılov T. Yeni Texnologiyalar və Demokratiya: Azərbaycanda İnformasiya Cəmiyyətinin İnkişafı. Bakı, 2021.
10. Orucov H. H.Əliyev və Azərbaycanın milli siyasəti. Bakı, 2006.
11. Əfəndiyev M. Siyasi elmin əsasları. Bakı, 2004.
12. Siyasi biliklərin əsasları. I buraxılış. Dərs vəsaiti. Bakı, 1997.
13. Əfəndiyev M. Siyasi elmin problemləri (dərs vəsaiti). Bakı, 1998.
14. Tağıyev Ə., Seyidov M. Siyasət nəzəriyyəsi. Ensiklopedik məlumat kitabı. Bakı, 2012.
15. Ələkbərova N. Siyasi elmin tarixi və metodologiyası (dərslik). Bakı, 2005.


**IV Prerekvizit fənlər:** Fənnin tədrisi üçün öncədən başqa fənnin tədrisinə zərurət yoxdur.
**V Korekvizit fənlər:** Fənnin tədrisi ilə eyni vaxta başqa fənnin tədrisinə ehtiyac yoxdur.
**VI Fənnin təsviri və məqsədi:** Politologiya kursunda siyasətin məqsəd və vəzifələri, onun bir elm kimi meydana gəlməsi, siyasi fikrin təşəkkülü və tarixi inkişaf mərhələləri, insan və siyasət problemi, siyasi hakimiyyət, siyasi şüur, siyasi ideologiya, siyasi sistem və onun strukturu, dövlət və siyasi partiyaların siyasi həyatda rolu, demokratiya institutlarının vətəndaş cəmiyyətinin təşəkkülünə göstərdiyi təsir, cəmiyyətdə siyasi münaqişələrin həlli yolları, müasir sivilizasiya və qlobal problemlər və siyasətlə bağlı digər məsələlərin tədrisi nəzərdə tutulur. Fənnin tədrisində məqsəd gənc nəslin əsas aparıcı dəstələrindən biri olan tələbələrin siyasi şüurunu inkişaf etdirmək, onlarda

siyasət, siyasi münasibətlər və mənafelər haqqında aydın təsəvvür yaratmaq, cəmiyyətin siyasi sisteminə daxil olan struktur elementləri haqqında onları məlumatlandırmaq, siyasi partiyaların və ictimai-kütləvi təşkilatların işində praktiki surətdə iştirak etmək imkanı yaratmaqdır

**VII Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yəni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir.

Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.

Qiymət meyarları aşağıdakılardır:

- 10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam aça bilir;
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal - tələbənin cavabı əsasən düzgündür;
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - cavab yoxdur.

Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın) miqdarı 17 dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.

Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| Bal aralığı (göstərilən ballar daxil olmaqla) | Hərflə işarəsi | Sözlə yazılışı |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |
| 51-60 bal | E | qənaətbəxş |
| 51-baldan aşağı | F | qeyri-kafi |

**IX Davranış qaydalarının pozulması:** Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X Təqvim planı**: 15 saat mühazirə, 15 saat seminar. **Cəmi 30 saat.**

| № | Keçirilən mühazirə və seminar mövzuların məzmunu | Saat | | Tarix |
|---|---|---|---|---|
| | | Mühazirə | Seminar | |
| 1 | **Mövzu: Politologiyanın predmeti, strukturu və əhəmiyyəti.** **Plan:** | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| | 1.Politologiyanın yaranması<br>2. Politologiyanın predmeti, subyekti və obyekti<br>3.Siyasi elmlərin funksiyaları, strukturu və əhatə dairəsi<br>4.Politologiyanın əhəmiyyəti<br>**Mənbə:** [1;2;3;4;5;11;12;13] | | | |
| 2 | **Mövzu: Siyasi fikir tarixi**<br>**Plan:**<br>1.Qədim Şərqin siyasi fikir tarixi<br>2.Qədim Yunanıstanda və Romada siyasi fikir<br>3.İntibah dövrünün siyasi konsepsiyaları<br>4.Müasir siyasi təlimlər<br>5. Liberalizm. Konservatizm<br>**Mənbə:** [1;2;3;4;5;14;15] | 2 | 2 | |
| 3 | **Mövzu: Azərbaycanda siyasi fikir**<br>**Plan:**<br>1.Qədim dövrün siyasi fikirləri<br>2.İntibah dövründə Azərbaycanda siyasi fikir<br>3.Azərbaycan siyasi fikri XİX əsrdə və XX əsrin əvvəllərində<br>4.Müasir Azərbaycanda siyasi fikir<br>**Mənbə:** [1;2;3;4;5] | 2 | 2 | |
| 4 | **Mövzu: Siyasi hakimiyyət. Demokratiya**<br>**Plan:**<br>1.Siyasi hakimiyyət anlayışı<br>2.Hakimiyyət bölgüsü<br>3.Hakimiyyət formaları. Siyasi rejimlərin növləri<br>4.Legitimlik<br>5.Demokratiyanın əlamətləri və formaları<br>**Mənbə:** [1;2;3;4;5;6;7;9] | 2 | 2 | |
| 5 | **Mövzu: Seçkilər və seçki sistemləri. Siyasi partiyalar**<br>**Plan:**<br>1.Seçkilərin mahiyyəti və funksiyaları<br>2.Seçki senzləri<br>3.Seçki sistemləri<br>4.Siyasi partiyaların formalaşma tarixi və əsas əlamətləri<br>5.Siyasi partiyaların strukturu, funksiyaları və tipologiyaları.<br>**Mənbə:** [1:2:3;4;5;8] | 2 | 2 | |
| 6 | **Mövzu: Millət anlayışı. Millət və milli siyasət.**<br>**Plan:**<br>1.Millət anlayışı<br>2.Milli ideya və ideologiya<br>3.Milli müqədəratı təyin etmə məsələsi<br>4.Milli dövlət quruluşunun əsas formaları<br>**Mənbə:** [1;2;3;4;5;10] | 2 | 2 | |
| 7 | **Mövzu: Siyasi liderlik və siyasi elita**<br>**Plan:**<br>1.Siyasi lider və liderlik<br>2.Siyasi liderlərin təsnifatı<br>3.Siyasi liderlərin funksiyaları<br>4.Siyasi elita<br>**Mənbə:** [1:2:3] | 2 | 2 | |
| 8 | **Mövzu: Beynəlxalq münasibətlər və xarici siyasət**<br>**Plan:**<br>1.Xarici siyasətin metod və vasitələri. Beynəlxalq siyasi münasibətlər<br>2.Diplomatiya haqqında<br>3.Beynəlxalq münaqişələr, beynəlxalq təhlükəsizlik<br>**Mənbə:** [1;2;3;4;5] | 1 | 1 | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:**
Təlim nəticəsində tələbələrin əldə etməli olduqları təsəvvür, vərdiş və bacarıqları:
Öyrənən tanış olur:
- Tələbələr Politologiya fənninin əhəmiyyətini, politologiya anlayışı, siyasətin mahiyyəti, siyasətin tipləri və növləri, siyasi siniflərhaqqında ümumi biliklər əldə edəcəklər.
- Politologiya elminin təkamül tarixi, əsas kateqoriyalrı və funksiyaları, metodları, tanış olacaqlar.
- Siyasi hakimiyyət, hakimiyyətin strukturu, siyasi rejimlər siyasi partiyalar, hakimiyyət bölgüsü və s. hağğında biliklər əldə edcəklər.
- Siyasi sistemin tarixi formaları, cəmiyyətin siyasi sisteminin strukturu, dövlət hakimiyyəti, dövlətin mənfi və müsbət tipləri, dövlətin mənşəyi və mahiyyəti və s. ilə tanış olacaqlar.
- Siyasi şüur, onun məzmunu və mahiyyəti, tipləri, siyasi mədəniyyət onun funksiyaları, siyasi mədəniyyətin tipləri haqqında ümumi biliklər alacaqlar.
- Siyasi ideyologiya, onun məzmunu, ideyalogiya ilə siyasətin qarşılıqlı əlaqəsi, ideyaloji cərəyanlarla tanış olacaqlar.

**XII Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**
- mühazirə, seminar, praktiki tapşırıqlar
- təqdimat və müzakirə
- debat
- müstəqil iş/araşdırma

**XIII. Fənn üzrə təlim nəticələri:**
- Siyasət, demokratiya, siyasi təsisatlar, siyasi proseslər, siyasi hakimiyyət, siyasi sistem, siyasi rejim, seçki sistemi, azadlıq və s. kimi siyasi anlayışların tələbələr tərəfindən mənimsənilməsi və onlarda siyasi dünyagörüşünün formalaşdırılmasını bacarır;
- Beynəlxalq münasibətlərin və eləcə də Azərbaycandakı siyasi proseslərin mahiyyəti haqqında bilikləri bilir;
- Nəzəri və tətbiqi bilikləri bir-birindən ayırmağı bacarır, onların siyasi qərarların qəbul edilməsindəki rolunu bacarır;
- Siyasi tədqiqatlar aparmaq, eləcə də tənqidi və müqayisəli təhlildən istifadə etmək bacarığını bilir;
- Siyasi prosesləri modelləşdirməyi və proqnozlaşdırmağı bacarır;
- İnsan və vətəndaş hüquq və azadlıqlarını dərk etmək və onları ictimai həyatın müxtəlif sahələrində istifadə etməyi bacarır;
- Dinləmək, öz rəyini müdafiə etmək və diskussiya aparmaq bacarığı, eyni zamanda müxtəlif siyasi problemlərin müstəqil həll edilməsi təcrübəsini bilir.

**XIV Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

---

---

**XV Kollokvium sualları:**
**I kollokvium sualları:**
1. Politologiyanın yaranması
2. Politologiyanın predmeti, subyekti, əhəmiyyəti.
3. Siyasi elmlərin funksiyaları, strukturu və əhatə dairəsi
4. Liberalizm. Konservatizm
5. İntibah dövründə Azərbaycanda siyasi fikir
6. Azərbaycan siyasi fikri XIX əsrdə və XX əsrin əvvəllərində
7. Müasir Azərbaycanda siyasi fikir
8. Qədim Şərqdə siyasi fikir
9. Qədim Yunanıstanda və Romada siyasi fikir
10. İntibah dövrünün siyasi konsepsiyaları

**II Kollokvium sualları:**
1. Müasir siyasi təlimlər
2. Siyasi hakimiyyət anlayışı
3. Hakimiyyət bölgüsü
4. Hakimiyyət formaları
5. Siyasi rejimlərin növləri
6. Legitimlik
7. Demokratiyanın əlamətləri və formaları
8. Seçkilərin mahiyyəti və funksiyaları

9. Seçki senziləri.
10. Siyasi partiyalaın formalaşma tarixi.Çox partiyalılıq.

**XVI Fənn üzrə imtahan sualları:**

1. Politologiyanın yaranması
2. Politologiyanın predmeti, subyekti, əhəmiyyəti.
3. Siyasi elmlərin funksiyaları, strukturu və əhatə dairəsi
4. Politologiyanın digər elimlərlə əlaqəsi.
5. Liberalizm. Konservatizm
6. İntibah dövründə Azərbaycanda siyasi fikir
7. Azərbaycan siyasi fikri XIX - XX əsrin əvvəllərində
8. Müasir Azərbaycanda siyasi fikir
9. Qədim Şərqdə siyasi fikir
10. Qədim Yunanıstanda və Romada siyasi fikir
11. İntibah dövrünün siyasi konsepsiyaları
12. Müasir siyasi təlimlər
13. Siyasi hakimiyyət anlayışı
14. Hakimiyyət bölgüsü
15. Hakimiyyət formaları
16. Siyasi rejimlərin növləri
17. Legitimlik
18. Demokratiyanın əlamətləri və formaları
19. Seçkilərin mahiyyəti .
20. Seçki senzlərim
21. Seçki sistemləri
22. Siyasi partiyaların formalaşma tarixi. Çoxpartiyalılıq.
23. Millət anlayışı
24. Milli ideya və ideologiya
25. Siyasi lider və liderlik
26. Siyasi liderlərin təsnifatı
27. Siyasi elita
28. Xarici siyasət.
29. Siyasi münaqişələr
30. Qloballaşma

**S/f Politologiya** fəninin sillabusu **6001012-Kimya və biologiya müəllimliyi, 6005004-Ekologiya, 6001005-Fizika müəllimliyi, 6001015-Riyaziyyat müəllimliyi, 6001017-Riyaziyyat və informatika müəllimliyi, 6001020-Texnologiya müəllimliyi** ixtisaslarının təhsil proqramı, tədris planı və LDU Elmi Şurasının 25.04.2018-ci il qərarı ilə təsdiq olunmuş fənn proqramı əsasında tərtib olunmuşdur.

Sillabus **"Tarix və onun tədrisi metodikası"** kafedrasında müzakirə edilərək təsdiq edilmişdir **(13 fevral 2026-cı il, protokol № 6).**

**Mühazirə müəllimi: ______________________ dos.R.H.İbadov**

**Seminar müəllimi: ______________________ m.G.H.Əlizadə**

**Kafedra müdiri:___ ___________ dos. K.F.Mahmudov**